


## *ÖMÜRBEK AZİMBAYEV*
(ӨМҮРБЕК АЗИМБАЕВ) –

*1988-ci ildə Batken bölgəsinin*
*Kadamçay elinin*
*Kötörmö kəndində doğulub.*
*Uluslararası "Nur borbor" Yaradıcı Gənclər*
*Akademiyasının üzvüdür.*
*Bir şeir kitabı gün üzü görüb.*

***

Əlini uzatdın, baxışlar yayğın,
Yoxdu bu gecənin qiyməti, yoxdu.
Tor qurdun beləcə könül şəhrimə,
Daha səndən özgə söhbəti yoxdu.

Bir rəssam əsəri olsaydı ömrüm,
Süslənərdi sənli duyğularımla.
Şeirlər qoşsaydım, kəlmə yerinə
Özün boylanardın misralarımdan...

Səs-səsə vermişik, sanki bir şeirin
Bənd-bənd misralarda sözü çulğaşır.
Sən dünyanı gülə tutduğun üçün,
Mən də öz ruhumu sənə tapşırdım...

***

Bu gün bitmək üzrə bir işim vardı,
Sabah bitirərəm, – deyə boşladım.
Sabah olunca da bitmədi işim,
Sonra yetirərəm, – deyə boşladım.

Verəcək də vardı, alacağım da,
Qaçmır, alarsan də, – deyib dayandım.
Demişdim verərəm verəcəyimi,
Vermədim, olanı yeyib oyandım.

Xəyallar qurmuşdum, hədəfim vardı,
Nələr gözləyirmiş qarşıda məni...
Nəfs, səbirsizlik, bir də tənbəllik –
Üçüymüş həyatda demə, düşmənim.

# *ƏFV*

Tələskənlik köhnə xasiyətimdi,
Bir dostu küsdürdüm bu gün özümdən.
Ah kobudluq... iynə udmuş kimiyəm,
Dostun etdikləri gəldi gözümdən.

Başı ağrısaydı dərman tapardım,
Beli ağrısaydı – qulluğundaydım.
Bir qəlb ki qırıldı, məlhəmi yoxdu,
Gör, mən nə sayırdım, fələk nə saydı..?

Boynum həqiqətə qıldan incədi,
Bircə yolum qalır – o, etirafdı!..
Məni əfv et! – deyə bir məktub yazsam,
Görən əfv edərmi? – axı o haqdı...

Küyə gedib, kimlər xəta yapmadı? –
Bağışlamaq da bir Tanrı lütfüdü.
Küsən könüllərin, qırılan qəlbin,
Dəvası əfv adlı insaf görküdü…

## *ÜRƏKLƏRƏ MƏLHƏM OLMAQ İSTƏRƏM*

Anlayanlar bilər nədi bu həyat,
Dünyanın sonu yox, – deyənə yadam.
Mən təqva sahibi olammasam da,
Mömin olduğuma ürəkdən şadam.

Acı sözdən qoru dilimi, deyib,
Dua eləyərəm hər səhər-axşam.
Bir könül incidib, bir üz küsdürüb,
Sonra hansı üzlə şeir yazaram?..

İraq olsalar da biri-birindən,
Təmiz könüllülər yaxındı qəlbən.
Yaman göz, yaman söz dəlib qanadan
Ürəklərə məlhəm olmaq istərəm.

(Çevirən: **İbrahim İLYASLI)**